# Əhalinin sosial rifahına yönələn infrastruktur layihələri

## Millət vəkilləri hesab edir ki, bu addımlar cəmiyyətdə çox yüksək qiymətləndirilir, xalq tərəfindən birmənalı dəstəklənir

**Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev 2020-ci ildə qarşıda duran vəzifələr haqqında danışıb. Dövlət başçısı bu il ərzində sosial infrastruktur layihələri ilə bağlı önəmli addımların atılacağını vurğulayıb: "Onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcək.**



İki Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Bu il beş "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək və beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 21-ə çatacaq. Ancaq, əlbəttə, bu proses davam etdirilir. Bildirməliyəm ki, beş mərkəz bu il istifadəyə veriləcək, bundan əlavə daha altı mərkəzin açılışı da gündəlikdədir. Onlardan ikisi Bakıda tikiləcək və beləliklə, Bakıda mərkəzlərin sayı yeddiyə çatacaq. Çünki indi bəzi mərkəzlərdə növbələr yaranır. Biri Gəncədə tikiləcək. Gəncədə ikincisi olacaq. Biri Sumqayıtda, orada da ikincisi olacaq. Biri Lənkəran, biri isə Salyanda. Beləliklə, bu proqram maksimum 2021-ci ilin sonuna qədər başa çatmalıdır, bəlkə ondan da tez. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 27-yə çatacaq".

Prezident İlham Əliyev vurğulayıb ki, "DOST" mərkəzlərinin yaradılması daha geniş vüsət alacaq: "Artıq iki mərkəz keçən il istifadəyə verilib və ümumiyyətlə, 30-dan çox "DOST" mərkəzinin yaradılması nəzərdə tutulur.

Digər sosial layihə şəhid ailələri üçün tikiləcək və təmin ediləcək mənzillərdir. Keçən il 934 şəhid ailəsinə mənzil verilmişdir. Bu il göstəriş vermişəm ki, bu rəqəm artırılsın və ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən gözəl evlərlə, mənzillərlə təmin ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına gəldikdə, bu il yenə bu sahədə də rekord il olacaq. Çünki bu il 7 min köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur. Keçən il bu rəqəm 5 min idi. Beləliklə, təqribən 30-40 min köçkün yeni evlərlə təmin ediləcəkdir".

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında **Milli Məclisin deputatı, politoloq Elman Nəsirov** bildirdi ki, Prezident İlham Əliyev sonuncu müşavirədə bir çox sosial layihələrin reallaşdırılması məsələlərinə də xüsusi diqqət ayırdı: "Həqiqətən də 2004-cü ildən üzü bəri, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ilk dəfə qəbul edilməsindən sonra sözün həqiqi mənasında sosial infrastruktur sahəsində çox ciddi addımlar atılıb. Bu, bəlli faktlardır ki, 2004-cü ildə ölkəmizdə qazlaşdırmanın səviyyəsi 51 faiz idisə, indi 96 faizə çatıb. O zaman içməli su ilə davamlı təminat ölkədə 26 faiz idisə, indi 70 faizə yaxınlaşıb. Şəhərlərdə isə bu rəqəm 80 faizdən yuxarıdır. Yollarımızın o zaman bərbad vəziyyətdə olması hər kəsə bəllidir. Son 16 il ərzində təxminən 16 min kilometr yol çəkilib. Bilirsiniz ki, Davos İqtisadi Forumunun hesabatında Azərbaycan dünya miqyasında 27-ci yerdədir. Bu, çox böyük göstəricidir. Ötən il min kilometr yolun çəkilməsi nəzərdə tutulsa da, 1300 kilometrə gəlib çatdı. 2020-ci ildə isə yenidən 1000 kilometr yolun çəkilməsi gözlənilir. Cənab Prezident vurğuladı ki, istisna deyil ki, bu il də gözlənildiyindən daha çox yolların çəkilişini həyata keçirək. Onu da qeyd edim ki, elektrik enerjisi ilə bağlı sahə də vaxtı ilə bərbad vəziyyətdə idi. Paytaxtın özündə saatlarla işıq olmurdu, rayonlarda isə insanlar sutkalarla elektrik enerjisinə həsrət qalırdı. İndi ölkəmizdə nəinki əhali 100 faiz elektrik enerjisi ilə təmin edilir, hətta ölkəmiz keçən il elektrik enerjisinin ixracından 60 milyon dollar vəsait də qazanıb".

Politoloq qeyd etdi ki, infrastruktur layihələrindən danışarkən xüsusilə, məktəb və xəstəxanaların tikilişini vurğulamaq lazımdır: "Son 16 il ərzində 640-dan çox xəstəxana tikilib və ya bərpa olunub. 3500-dən çox məktəb tikilib və ya bərpa edilib. Keçən il isə 84 məktəb, 60 xəstəxana tikilib və ya bərpa olunub. O məktəblərdən 50-si modul tiplidir ki, bunların da əksəriyyəti ucqar dağ kəndlərdə inşa edilib. Bu da sosial sahəyə çox böyük diqqət ayrılmasının göstəricisi kimi dəyərləndirilə bilər. Dördüncü Dövlət Proqramının yerinə yetirilməsi çərçivəsində də bu istiqamətdə aparılan siyasətin davam etdirilməsi və əhalinin rifahının yaxşılaşdırılması, yeni əmək haqlarının, pensiyaların, müavinətlərin artırılması və paralel olaraq insanlar üçün sosial istiqamətli layihələrin həyata keçirilməsi əsas hədəflər sırasındadır".

E.Nəsirovun sözlərinə görə, ölkə Prezidentinin siyasətinin mərkəzində məhz Azərbaycan xalqının sosial rifahı dayanır: "Dövlət başçısı problem yaradan məmurlara qarşı da çox qətiyyətli, prinsipial bir mübarizə aparır və özü xalqa xidmət baxımından bir örnəkdir. Özünün də qeyd etdiyi kimi, xalqın bir nömrəli xidmətçisidir və bütün məmurlardan da bunu tələb edir. Kimlər xalqa ləyaqətlə xidmət edəcək, onlar mükafatlandırılacaq. Kimlərsə bunun əksini edəcək, öz şəxsi mənafeyini hər şeydən üstün tutacaq, rüşvət və korrupsiya yolunu seçəcək, bu halda cəzalandırılacaq. Yəni cənab Prezident çox aydın şəkildə öz fikirlərini söyləyir. Ona görə də, bütün bu addımlar cəmiyyətimizdə çox yüksək qiymətləndirilir, xalqımız tərəfindən birmənalı dəstəklənir. Bunun da sayəsində ölkəmizdə səfərbər olunmuş cəmiyyət, vətəndaş həmrəyliyi hökm sürür. Onun da əsasında sabitlik formalaşıb və xalqımız da cənab Prezidentin ətrafında daha sıx birləşərək bu sabitliyi göz bəbəyi kimi qorumağı özü üçün bir nömrəli vəzifə müəyyən edib".

**Millət vəkili Azər Badamov** bildirdi ki, cənab Prezidentin rəhbərliyi altında ölkəmizdə aparılan dövlət siyasətinin təməlində sosial siyasət dayanır: "O sosial siyasətdir ki, bu gün insanların rifahının yaxşılaşmasına xidmət edir. Burada sosial infrastruktur layihələrini qeyd etmək olar. Ölkəmizdə inşa edilən müasir yollar, qazlaşmanın yüksək səviyyəyə gətirilməsi, su və kanalizasiya xidmətlərinin müasirləşdirilməsi istiqamətində görülən işlər, elektrik enerjisinin istehsalı və təminatı sahəsində yenidənqurma işləri və digər sahələr birbaşa insanların sosial rifahına öz təsirini göstərir. Pensiyaların, müavinətlərin, əmək haqlarının artırılması, şəhid ailələrinə diqqətin artırılması, birdəfəlik müavinətin 18 mindən çox şəhid vərəsəsinə ödənilməsi, ölkə başçısının siyasətinin hansı istiqamətdə olduğunu göstərir".

A.Badamov vurğuladı ki, yeni açılan "ASAN xidmət" və "DOST" mərkəzləri, eləcə də aqrar xidmət mərkəzlərinin müasir səviyyədə qurularaq vətəndaşların istifadəsinə verilməsi, insanların dövlət xidmətlərindən rahat istifadəsinə gətirib çıxarır ki, bu da sosial rifaha xidmət edən addımlardır: "Yəni Azərbaycan gənc ölkə olmasın baxmayaraq, sosial sahədə həyata keçirilən möhtəşəm layihələrlə dünyanın qabaqcıl ölkələrini ötür. Çünki qısa bir dövrdə bu qədər layihələr həyata keçirən ikinci dövlət yoxdur. Bəzi ölkələr yüzillik tarixə malikdirlər, ancaq indiki duruma gəlmək üçün onlar xeyli illəri geridə qoymalı oldular. Ancaq Azərbaycan üçün düzgün qurulmuş dövlət siyasəti, ölkə başçısının rəhbərliyi ilə təmin olunmuş siyasi sabitlik, insanların təhlükəsizliyi, xüsusilə sosial layihələr cəmiyyətin məmnunluğuna xidmət edən işlərdir. Düşünürəm ki, bu siyasət uğurla davam etdiriləcək".

**BƏXTİYAR**